# Poçt işçiləri peşə bayramlarını qeyd ediblər

***Ümumdünya Poçt İttifaqının (ÜPİ) yaranması ilə başlayan peşə bayramı planetimizin bütün poçt işçiləri tərəfindən hər il oktyabrın 9-da geniş qeyd edilir. İsveçrənin Bern şəhərində1874-cü ildə keçirilmiş XIV beynəlxalq poçt konqresində ÜPİ-nin yaradılması barədə müqavilə imzalanıb. İyirmidən çox ölkə nümayəndələrinin iştirakı ilə keçirilmiş konqresdə ÜPİ-nin ümumi prinsiplərini, üzvlərinin hüquq və öhdəliklərini müəyyənləşdirən əsas sənəd - Ümumdünya Poçt Konvensiyası qəbul edilib. Azərbaycan poçtu 1993-cü ildən ÜPİ-nin üzvüdür.***

"Azərpoçt" MMC-nin Qəbələ Poçt Filialının işçiləri də oktyabrın 9-da bu peşə bayramını qeyd ediblər. Onlar əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, ulu öndərin əziz xatirəsinə öz dərin ehtiramlarını bildiriblər.

Sonra poct filialında geniş bayram tədbiri keçirilib. Poçt filialının rəisi Rauf Kərimov bayram tədbirini açaraq son illərdə ölkə başçısı cənab İlham Əliyev tərəfindən bu sahəyə yaxından göstərilən diqqət və qayğının sayəsində Azərbaycanda poçt xidmətlərinin keyfiyyətinin xeyli yüksəldiyini, poçt rabitəsinin maddi-texniki bazasının genişləndirildiyini, regionlarda, o cümlədən rayonumuzda poçt şöbələri üçün müasir üslubda yeni binaların tikildiyini, təmirə ehtiyacı olan poçt şöbələrinin əsaslı təmir olunaraq, müasir avadanlıqla təmin edildiyini diqqətə çatdırıb. Rauf Kərimov bildirib ki, hazırda rayonun bütün poçt şöbələrində əhaliyə ənənəvi xidmətlərlə yanaşı, digər xidmətlər, o cümlədən bank xidmətləri də göstərilir.

Bayram tədbirində Bayramkoxalı kənd poçt şöbəsinin rəisi Namizəd İsayev, poçt filialının iqtisadçısı Tükəzban Osmanova, filialın həmkarlar təşkilatının sədri Arzu Rəsulov və digərləri cıxış edərək poçt işçilərinə göstərilən qayğıya görə ölkə başçısına öz minnətdarlıqlarını bildiriblər.

Tədbirdə vəfat edən poçt işçilərinin xatirəsi yad edilib.

**"Qəbələ"**
**İlkin VƏLİZADƏ (foto).**



# Maraqlı keçdi

5 Oktyabr Beynəlxalq Müəllimlər Günü Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbində təntənəli şəkildə qeyd olunmuşdur. Yaxşı haldır ki, bayram şənliyinə vaxtilə bu məktəbdə işləmiş, hazırda təqaüddə olan müəllimlər də dəvət olunmuşdu.

Bayram şənliyini məktəbin direktoru Məlahət Dadaşova açaraq əlamətdar gün münasibətilə bütün müəllimləri təbrik etmişdir.

Direktor müavinləri Azadə Hacıyeva, Ramin Məmmədov, təqaüddə olan müəllimlərdən Alagöz İsmayılova, Mahirə Xurşudova, Tənzilə Heydərova, Tamella Əhmədova, Əlövsət Aləmmədov, Oruc Zeynalov və Rafiq Yaqubov müəllim günü münasibətilə keçmiş həmkarlarını təbrik etmişlər. Təqaüdçü müəllimlər məktəbə, müəllimə dövlətimiz tərəfindən göstərilən diqqət və qayğıdan danışmış, məktəblə əlaqədar xatirələrini dilə gətirmişlər.

Təqaüdçü müəllimlərdən Mehrəli Mehrəliyev "Kaş səni görməyəydim", Emin Baratoğlu "Müəllim" şeirləri ilə həmkarlarını xəyalən gənclik illərinə qaytarıblar.

Çay süfrəsi arxasında keçən bayram şənliyi xeyli davam edib və tədbir iştirakçılarında xoş ovqat yaradıb.

**Emin Ədilli,**
**"Qəbələ"-nin müxbir postunun rəhbəri .**

# Daim qabaqcıllar sırasında

Tüntül kənd tam orta məktəbi uzun illərdir ki, rayonun qabaqcıl təhsil ocaqları içərsində öz yerini qoruyub saxlayır. 2017-2018-ci dərs ilinin yekunlarına görə də məktəb öz ənənəsinə sadiq qalmışdır. Belə ki, qeyd etdiyimiz dərs ilində məktəbi bitirmiş məzunların 16 nəfəri ali məktəblərə qəbul olunmaq üçün imtahanlarda iştirak etmiş, onlardan 14 nəfər tələbə adını qazanmışdır. Ali məktəblərə qəbul üçün sənəd verənlərin orta bal göstəriciləri 350 olmuşdur. Məktəbin yetirməsi Zaman Əhmədli qəbul imtahanlarından 629 bal toplayaraq Azərbaycan Polis Akademiyasına daxil olub.

Geridə qoyduğumuz dərs ili məktəb üçün keyfiyyət ili olmuşdur. Tədrisin keyfiyyətini öyrənmək məqsədilə bütün siniflərdə monitorinq aparılmış, nəticələr məktəb pedoqoji şurasında müzakirə olunmuş, müvafiq tədbirlər müəyyənləşdirilmişdir. Tədris ocağında "keyfiyyət ili" çərçivəsində bu il də tədbirlər davam etdiriləcək.

Məktəb Oğuz rayonunun Qumlaq kənd tam orta məktəbi ilə əməkdaşlıq edir. Əməkdaşlığın bu ildə davam etdirilməsi, daha geniş təcrübə mübadiləsinin aparılması nəzərdə tutulub.

2018-2019-cu dərs ilində məktəbdə 356 şagird təhsil alacaq.

Məktəbin müəllimlərinin əksəriyyəti böyük təcrübəyə, savada və şagirdlərlə işləmək qabiliyyətinə malikdir. Müəllimlərin savad və pedoqoji bacarıqlarının diaqnostik qiymətləndirilməsi prosesində məktəbin 44 nəfər müəllimi iştirak etmiş, onlardan 19 nəfəri 50 baldan yuxarı göstəriciyə nail olmuşdur. Məktəbin direktoru Telman Abdulxalıqov gələcək planlarını bir cümlə ilə ifadə edir. "Qarşımızda duran əsas vəzifə layiqli Azərbaycan vətəndaşı yetişdirməkdir".

Yeri gəlmişkən qeyd edək ki, məktəbin direktoru Telman Abdulxalıqov Azərbaycan Respublikası Prezidentinin 4 oktyabr 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan təhsilinin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalına layiq görülüb. 30 ildir ki, məktəbə rəhbərlik edən Telman müəllim kəndin, rayonun ictimai həyatında da fəal iştirak edir.

Təbrik edirik!

**Qüdrət SƏMƏDOV.**
**"Qəbələ"**

# Məzunlarımızdan ilk alim

Nic qəsəbə 3 nömrəli tam orta məktəb bir vaxtlar rayonumuzda ən geridə qalan məktəblər sırasında idi. Burada adətən son dərslərə qədər siniflərdə çox az şagird qalırdı. Son illər rayon rəhbərliyinin məktəbə göstərdiyi diqqətin nəticəsində təhsil ocağında tədris, təlim tərbiyə prosesi qaydaya düşmüşdür. Məktəb müasir tədris binası ilə bütün fənlər üzrə savadlı kadrlarla təmin olunmuşdur. Bunun nəticəsidir ki, məktəbin bu ilki məzunlarından 5 nəfər ali məktəblərə, 3 nəfəri orta ixtisas məktəblərinə qəbul olunmuşdur.

Məktəbdə bu dərs ili də uğurla başlamışdır. Yüksək səviyyədə hazırlanaraq keçirilən «Bilik Günü»ndə şagirdlərin və müəllimlərin fəallığı göstərirdi ki, burada təhsilə, dərsə münasibət kökündən dəyişib. Valideynlər də artır bilir ki, XXI əsr elm, texnika, internet əsridir. İndi ancaq müasir dövrə uyğun savadı olanlar həyatda nailiyyət qazana bilirlər.

«Bilik Günü» tədbirində iştirak edən Qəbələ Rayon İcra Hakimiyyətinin məsul işçisi Zahir Kərimov, RİH başçısının Nic qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi İbrahim Məmmədov və başqaları çıxışlarında yeni dərs ili münasibətilə müəllimləri, şagirdləri və valideynləri təbrik etmiş, hamıya uğurlar arzulamışlar.

Tədbirdə iştirak edən valideynlərin əvvəlki illərdən daha çox olması da sübut edirdi ki, onların bu məktəbdə tədrisin, təlim və tərbiyənin yüksələn xətlə getdiyinə inamları artıb.

«Bilik Günün» də yeni bir ənənənin əsası qoyuldu. Məktəbin məzunu, Azərbaycan Texniki Universitetinin baş müəllimi Çingiz Məmmədov bu ilin iyun ayının 20-də «Yan səth parlaq dairəsi», mövzusunda dissertasiya işini müdafiə edərək texnika elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. Alimin atası Mirzəmməd kişi də «Bilik Günü» tədbirinə dəvət olunmuş, tədbir iştirakçıları oğlunun alimlik dərəcəsi alması münasibətilə onu təbrik etmişlər. Gənc alimin atası öz mövbəsində oğlunun yetişməsində rolu olan məktəb kollektivinə təşəkkünü bildirmişdir.

**P.S.** Mən də vaxtilə Çingiz Məmmədova dərs demişəm. Tədbirdə ona həsr etdiyim «Alim Çingiz» şeirini iştirakçılara oxumuşam.

**Əhməd MƏMMƏDLİ,**
**«Qəbələ»nin müxbir postunun rəhbəri.**

# Kənd təsərrüfatı xəbərləri

## Taxıl səpini

Rayonumuzda payızlıq taxıl səpininin qaynar çağıdır. Hazırda tarlalarda 30 ədəd şum və səpin traktoru fasiləsiz işləyir. Bu vaxta qədər 19000 hektar sahədə şum çıxarılıb. 900 hektar sahəyə apra səpilib. Səpin işi gündən-günə sürətlənən xətlə davam edir. Şum çıxarılmasında və taxıl səpinində Nic, Bum, Vəndam qəsəbələrinin, Kürd, Yenikənd kəndlərinin əkinçiləri öndə gedirlər.

Havaların əlverişli keçməsi və fermerlərin fəallığı göstərir ki, payızlıq taxıl səpini ortimal müddətdə başa çatacaq.

## Tütün yığımı

Tütünçülərimiz bu günə qədər emal müəssisələrinə 100 ton yaş tütünün təhvil veriblər. Bundan başqa 220 ton yaş tütün qurudularaq anbarlara yığılıb. Tütün yığımı davam edir.

## Şəkər çuğunduru

Rayonumuzun kənd əməkçiləri üçün şəkər çuğunduru əkini yeni sahədir. Buna baxmyaraq bu il tarlalarda bol şəkər çuğunduru yetişdirilib. Bu vaxta qədər 1800 tondan çox şəkər çuğunduru yığılıb. Növbəti ildən şəkər çuğunduru əkininin daha da genişləndirilməsi nəzərdə tutulub.

## Üzüm yığımı

Rayonunun üzümçülük təsərrüfatlarında məhsul yığımıbaşa çatıb. Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzindən müxbirimizə verilən məlumata görə fermerlər indiyədək üzüm plantasiyalarından 1800 tondan çox məhsul tədarük ediblər.

Mərkəzin bitkiçilik şöbəsinin müdiri Elimdar Şərifov bildirib ki, "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq, son illər Qəbələ rayonunda bu sahənin inkişaf etdirilməsi istiqamətində fiziki və hüquqi şəxslər tərəfindən ardıcıl işlər görülür. Təkcə son



iki ildə fermerlər tərəfindən rayon ərazisində 17 hektar sahədə yeni üzüm bağları salınıb. Hazırda rayonda 421 hektar barverən üzüm plantasiyası mövcuddur.

**«Qəbələ»**